# Yeddi durna qanadında...

orta çağ Dərbənd şairlərindən...



**Məşhur Dərbəndi**
(XV əsr)

***

Xumar-xumar al yanağın üstündən
Nə dolanır bu diyara gözlərin.
Sürmələnib süzgün-süzgün baxanda
Salır məni alı-zarı gözlərin.

İraqda duransan, ey mahicamal,
Süzülür gözlərin, qaşları hilal;
Getməyir sinəmdən bu dağı-məlal,
Hərgah qılsa bir işarə gözlərin.

Qamətin çeşmimi giryan eylədi,
Həsrətin qəlbimi büryan eylədi,
Məcnun kimi dağı dövran eylədi,
Leyli kimi vara-vara gözlərin.

Məşhuram, qəddinin aşinasıyam,
Sən kimi bir yarın divanəsiyəm;
Şəmi rusxarının pərvanəsiyəm,
Nəzər qıla bir iqrara gözlərin.

**Şikəstə Dərbəndi**
(XV əsr)

**Nə dedim**

Durum dolanım başına,
Aşiqindən küsən dilbər.
Üzüm sürtüm buxağına,
Nə mən dinim, nə sən, dilbər.

Artırıbsan azarımı,
Nə xoş gördüm gövtarımı;
Aldın səbri-qərarımı –
Gecə yuxum kəsən dilbər.

Mina sözün zəbərcətdi,
Nə desən cana minnətdi;
Kimsələr yoxdu, fürsətdi,
Dur, gəl alım busən, dilbər.
Şikəstə bir sınıq neydi,
Fələk də qəddimi əydi;

Nə dedim xətrinə dəydi, –
Bu mən, dilbər, bu sən, dilbər.

**Diləfruz Pəri**
**(XVII əsr)**

**İçində**

Səhərdən seyrana vardım,
Yarı gördüm bağ içində.
Dərə-dərə dəstə bağlar
Qızılgül yarpaq içində.

Əzəldən budur dediyim,
Qənd ilə şəkər yediyim;
Mən olum, bir də sevdiyim,
Bir xəlvət otaq içində.

Diləfruzam, belə sandım,
Deme ki yardan usandım;
Camalın şövqünə yandım,
Qovulmuşam yağ içində.

**Xəlil Dərbəndi**
**(XVIII əsr)**

**Könül dönməz**

Ağalar, vəsil gözəldən
Mən dönərəm, könül dönməz.
Belə demişəm əzəldən;
Mən dönərəm, könül dönməz.

Bir ayıq etməz saqidən,
Əqlimi başdan dağıdan,
Dili dost, qəlbi yağıdan
Mən dönərəm, könül dönməz.

Qəlbimi əzib incidən,
Məni xalqa gülünc edən;
Ol üzü güllü qönçədən
Mən dönərəm, könül dönməz.

Könül dildara dövr edər,
Sızıldar yaram qövr edər;
Bunca kim, cana cövr edər, –
Mən dönərəm, könül dönməz.

Şikayətim vardır yardan,
Mənsur tək asıldın dardan;
Xəliləm, bivəfa yardan
Mən dönərəm, könül dönməz.

**Zərnigar Dərbəndi**
**(XVIII əsr)**

**Dərbəndə gəl**

Salam olsun sənə, ay işıq Valeh,
Hünərin var isə bu Dərbəndə gəl.
Ya aşiqliq adın götür üstündən,
Ya təbin i var isə bu Dərbəndə gəl.

Qırx doqquz aşıqı salmışam bəndə,
Ayağında zəncir, boynunda kündə;
Qırxına bir çörək ciradir gündə,
İştahan var isə bu Dərbəndə gəl.

Bir neçə sözüm var, yazmışam xəlvət,
Adətdir qonağa edərlər hörmət;
Adım Zərnigardır, Vətənim Dərbənd, –
Mənə sözün varsa bu Dərbəndə gəl.

**Əhməd Dərbəndi**
**(XIX əsr)**

**Namərdin**

Dinləyin ağalar, tərif eyləyim,
Heç yaza çıxmasın qışı namərdin.
Kor olsun gözləri, batsın oylağı,
Ala qarğa olsun quşu namərdin.

Ovcunun içində yeyər çörəyi,
Qapıdan çağırsan titrər ürəyi;
Qurusun meyvəsi, bağı, tənəyi,
Heç aşa dəyməsin dişi namərdin.

İstəməz yanında yarı, yoldaşı,
Heç gəlməz evinə qohum, qardaşı;

Nagah qonaq gəlsə salar tarmaşı,
Açılmaz qabağı-qaşı namərdin.

Canım qurban olsun mərd oğlu mərdə,
Mərifət dilində, kamalı sərdə;
Nagah bir qulluğun düşsə namərdə, –
Çal qabana dönər başı namərdin.

Axşam oldu, mola verər azanı,
Heç qaynamaz ocağında qazanı;
Qınamayın bu sözləri yazanı, –
Bundan beş-bətərdir işi namərdin.

Mən Əhmədəm, bildirirəm ellərə,
Namərd düşsün çalay vətən çöllərə;
Qazandığı nemət getsin yellərə,
Qalmasın daş üstə daşı namərdin.

## Məhəmməd Tağı Qumru
(XIX əsr)

***

Ey dil, göz aç, keçib
ömrü cavan hanı?!
Bel bağlama cahana.
vəfayi-cahan hanı?!
Hər qərinə dolub boşalır.
karivan keçir.
Bu karivansaraya gələn
karivan hanı?!

Torpaq dolub o başlara ki
əyməzdi çərxə baş
Torpaqlar içrə onlardan
bir nişan hanı?!

Çox nazəninlər ağuşa
Alıb mar ilə mur.
Əza hanı, cəsəd hanı.
Cismlə can hanı?!

Çox şairlər gəlmiş-getmiş
dünyadan.
Bu bəzmi nəzm edən
Qumruyi-xoşzəban hanı?!

## Süleyman Stalski
**(1869-1937)**

### Dərbəndə şəhərinə

Bu dünyanın hər yerində
Bu şəhərin sorağı var.
Dağ boyda tarix kitabı, –
Dəniz boyda varağı var.

İşığdı bu, səhərdi bu,
Əcəb gözəl şəhərdi bu…
Başdan-başa bəhərdi bu
Hər addımda bir bağı var.

Dağ oxşayır, dəniz yeyir,
Su üstdə oda bənzəyir,
Bir az Bağdada bənzəyir, –
Qışlağı, həm yaylağı var.

Usta-usta, peşə-peşə
Küçələr çıxır yürüşə,
Pəncərələr büllur şüşə, –
Divar üstdə nur tağı var.

Həştərxandan, həm Kürədən,
Həm Axıtdan, həm Şuradan,
Baş açmır qonaq-qaradan, –
Məclisi var, yığnağı var.

Şair Süleymandı adım,
Əyilmədim, burulmadım,
Ürək-ürək, udum-udum
Vətən dadlı torpağım var.

Çevirəni: **R.Qusarçaylı**